**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# PEDAQOJİ TƏCRÜBƏ DÖVRÜNDƏ GƏLƏCƏK İBTİDAİ SİNİF MÜƏLLİMLƏRİNİN PEŞƏ SƏRİŞTƏLİLİYİNİN FORMALAŞDIRILMASININ DİDAKTİK ŞƏRTLƏRİ

İxtisas: 5804.01 – Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi

Elm sahəsi: Pedaqogika

İddiaçı: **Ülviyyə Fikrət qızı Nağıyeva**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Naxçıvan – 2023**

Dissertasiya işi Naxçıvan Dövlət Universitetinin "Pedaqogika və psixologiya" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: pedaqoji elmlər doktoru, professor,
Əməkdar elm xadimi
**Fərrux Abbas oğlu Rüstəmov**

Rəsmi opponentlər: pedaqoji elmlər doktoru, professor
**Hikmət Əbdül oğlu Əlizadə**

pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Şiruyə Məhəmmədəli qızı Azadəliyeva**

pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Lalə Zahir qızı Allahverdiyeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Naxçıvan Müəllimlər İnstitunun nəzdində fəaliyyət göstərən FD 2.40 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: __________ pedaqoji elmlər doktoru, professor
İsmayıl İsrafil oğlu Əliyev

Dissertasiya şurasının elmi katibi: __________ pedaqogika üzrə fəlsəfə doktoru, dosent
Qızıltac Tarverdi qızı Şahbazova

Elmi seminarın sədri: __________ pedaqoji elmlər doktoru, professor
Ləzifə Nağı qızı Qasımova

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Memarı ulu öndər Heydər Əliyev olan müasir Azərbaycan Respublikasında bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də aparılan islahatlar yüksələn xətlə inkişaf edərək cəmiyyətin yenidən qurulmasını və davamlı inkişafını təmin edir. Təhsil quruculuğu sahəsində qazanılan nailiyyətlər, BMT-nin İnsan İnkişafı hesabatına görə, Azərbaycanın "orta insan inkişafı" qrupundan "yüksək insan inkişafı" qrupuna daxil olmasını təmin etmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü və ardıcıl dövlət siyasəti ali pedaqoji təhsil sahəsində aparılacaq əsaslı dəyişikliklərin vahid konsepsiyasının, aydın strategiyasının və dövlət proqramının hazırlanmasını təmin etmişdir. Cənab Prezidentin sərəncamları ilə təsdiq edilən "Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu" (2009), "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" (2013) ölkəmizdə yeni müəllim kadrları nəslinin hazırlanmasında mühüm rol oynamışdır.

Strategiyada əsaslandırılır ki, şagirdlərin müasir dövrün tələblərinə uyğun böyüməsi, zəruri kompetensiyalara malik şəxs kimi formalaşdırılması *"müəllimin tədris təcrübəsindən, akademik bacarığından, peşəkarlığından asılıdır və müəllimin sadalanan keyfiyyətləri ilə şagirdlərin təlim nailiyyətləri arasında daxili əlaqə vardır*"[1].Son illərdə ali təhsilli ibtidai sinif müəllimi hazırlığına verilən tələblər artırılmışdır. Bunun da əsas səbəbi ümumtəhsil məktəblərinin ibtidai siniflərində təhsilin keyfiyyətinin yüksəldilməsinə verilən tələblərlə bağlıdır. İbtidai sinif şagirdlərinin idraki, psixomotor və hissi fəaliyyətlərinin düzgün təşkili nəticəsində onların şəxsiyyətini inkişaf etdirmək mümkündür. Bu da, təbii ki, ibtidai sinif müəllimi hazırlığına yeni yanaşma tələb edir. Belə yanaşmalardan ən vacibi 2014/2015-ci tədris ilindən orta ixtisas məktəblərində (pedaqoji kollec və məktəblərdə) ibtidai sinif müəllimi hazırlığının dayandırılması, 2020-

---

[1] Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 18 iyul tarixli 311 nömrəli qərarı ilə təsdiq edilmişdir. // "Xalq qəzeti" 18 iyul 2018-ci il

ci ildə "İbtidai sinif müəllimliyi" ixtisasının yeni Təhsil Proqramının təsdiq edilməsi və yeni nəsil tədris planlarının hazırlanmasıdır.

Ali təhsilli ibtidai sinif müəlliminin peşə hazırlığında *pedaqoji təcrübə* xüsusi yer tutur. Gələcək ibtidai sinif müəllimlərinin peşə hazırlığının səviyyəsi pedaqoji təhsilin məzmunundan və təşkilindən asılıdır. Peşəkar müəllimlər pedaqoji fəaliyyət üçün zəruri olan səriştələrə sahib olmaları ilə fərqlənirlər. Onların yetişdirilməsində isə nəzəri bilik və bacarıqlarla yanaşı, ali pedaqoji prosesin mühüm mərhələsi olan pedaqoji təcrübə mühüm rol oynayır. Pedaqoji təcrübə dövründə gələcək ibtidai sinif müəllimlərində zəruri kommunikativ və peşə kompetensiyaları formalaşır.2009-cu ildə "İbtidai sinif müəllimliyi" ixtisası üçün təsdiq edilmiş Təhsil Proqramında pedaqoji təcrübənin təşkilinə 18 həftə (36 kredit), 2014-cü ildə 14 həftə (21 kredit), 2020-ci 20 həftə (30 kredit) vaxt verilmişdir.Yekun Dövlət Attestasiyası üçün nəzərdə tutulan 9 kredit pedaqoji təcrübəyə ayrılan kreditlərə əlavə olunmuşdur. Belə yanaşmalar heç bir ciddi elmi araşdırmaya əsaslanmadığına görə, hər 5 ildən bir pedaqoji təcrübəyə ayrılan həftələrin və kreditlərin sayında dəyişiklik baş verir.

Azərbaycanlı tədqiqatçılardan fərqli olaraq rus tədqiqatçıları müəllim kadrları hazırlığında pedaqoji təcrübəni müxtəlif aspektlərdən araşdırmış, pedaqoji təcrübə dövründə gələcək müəllimlərin şəxsiyyətinin və peşəkarlıq keyfiyyətlərinin formalaşması və inkişafı problemlərini (Y.K.Babanski, V.A.Slastenin, V.K.Rozov, O.A.Abdullina, İ.F.Xarlamov, V.P.Qorlenko və b.), pedaqoji təcrübənin metodoloji məsələlərini (İ.T.Oqorodnikov, A.İ.Piskunov, S.N.Polyanski, V.K.Rozov, A.D.Sazonov və b.), pedaqoji təcrübə zamanı pedaqoji peşə bacarıqlarının formalaşmasını (V.İ.Andreyev, V.A.Kan-Kalik və b.), pedaqoji təcrübənin məzmun, forma və təşkilinin təkmilləşdirilməsi problemlərini (E.N.Şiyanova, E.V.Teleyeva, E.N.Şiyanova, N.E.Şurkova və b.) öyrənmişlər.

B.Bəşirovun "Ali məktəb pedaqogikası" (1989), T.Paşayevin "Ali təhsilin bakalavr pilləsində pedaqoji təcrübənin təşkilinin səmərəli yolları" (2004), F.Rüstəmov və T.Dadaşovanın "Ali məktəb pedaqogikası" (2007), O.Əfəndinin "Ali məktəb pedaqogikası kursu üzrə mühazirələr" (2010). N.Kazımovun "Ali məktəb pedaqogikası (2011), M.İlyasovun "Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin

müasir problemləri"(2018), M.İsmixanov və R.Bəxtiyarovanın "Ali məktəb pedaqogikası" (2011) adlı dərslik və dərs vəsaitlərində ali məktəb tələbələrinin pedaqoji praktikasının ümumi məsələləri, psixoloji əsasları, müəllim hazırlığında yeri və rolu şərh edilmişdir. Bununla yanaşı, müəllim hazırlığını həyata keçirən ali təhsil müəssisələrində pedaqoji təcrübənin təşkili ilə bağlı xeyli metodik tövsiyə və təlimatlar nəşr edilmişdir.

Gələcək ibtidai sinif müəllimlərinin pedaqoji təcrübəsinin təşkili ilə bağlı ilk praktik tövsiyə M.Ə.Muradxanov tərəfindən hazırlanmış və "Tələbələrin pedaqoji praktikası" (1961) adı ilə nəşr edilmişdir. Sonrakı illərdə gələcək ibtidai sinif müəlllimlərinin pedaqoji təcrübəsinin təşkili ilə bağlı hazırlanan tövsiyələr onun əsasında düzəldilmiş, cüzi dəyişiklik (dərslərin sayında, təcrübənin vaxtında və s) edilmişdir. Gələcək ibtidai sinif müəllimlərinin pedaqoji təcrübəsinin təşkili ilə bağlı son metodik vəsait də ADPU-nun İbtidai təhsilin pedaqogikası kafedrasının əməkdaşları tərəfindən hazırlanmışdır.[2]

Pedaqoji təcrübənin təşkilinin təhlili bir sıra ziddiyyətlərin həll edilməsini tələb edir. Fikrimizcə, bu ziddiyyətlər aşağıdakılardır:

1) gələcək ibtidai sinif müəllimlərinin nəzəri hazırlığı ilə praktik bacarıqları arasında; 2) gələcək ibtidai sinif müəllimlərinin şəxsi və peşə hazırlığına verilən tələblə müəllim kadrları hazırlığını həyata keçirən ali təhsil müəssisələrindəki mövcud ənənəvi peşə-pedaqoji hazırlığı sistemi arasında; 3)gələcək ibtidai sinif müəllimlərinin pedaqoji təcrübənin məzmununun təkmilləşdirilməsi zərurəti ilə pedaqoji təcrübənin təşkilinə ənənəvi, stereotipik yanaşmalar arasında; 4) cəmiyyətin innovativ fəaliyyətə qadir müəllimə ehtiyacı ilə gələcək müəllimin peşəkar səriştəsinin inkişaf etdirilməsində mühüm rol oynayan pedaqoji təcrübənin imkanlarından səmərəli istifadə edilməməsi arasında.

Son illərdə ali pedaqoji təhsilin məqsədi, məzmunu, prinsip, metod və təşkili formaları ilə bağlı müəyyən araşdırmalar aparılsa da gələcək ibtidai sinif müəllimlərinin pedaqoji təcrübəsinin təşkili

---

[2] İbtidai təhsil fakültəsində pedaqoji təcrübənin təşkili və aparılmasına dair metodiki vəsait: (müəllimlər və tələbələr üçün) / tərt. ed.: F.A. Rüstəmov, N.R. Abbasov, Z. Məmmədova [və b.]. – Bakı: ADPU, – 2019, – 177 s

texnologiyası tədqiqatlardan təcrid edilmişdir. Bu boşluğu doldurmaq məqsədilə *“Pedaqoji təcrübə dövründə gələcək ibtidai sinif müəllimlərinin peşə səriştəliliyinin formalaşdırılmasının didaktik şərtləri”* mövzusunda dissertasiya yazmağı məqsədəuyğun hesab etdik.

**Tədqiqatın obyektini** gələcək müəllimlərin peşə səriştəliliyinin formalaşdırılması təşkil edir.

**Tədqiqatın predmetini** gələcək ibtidai sinif müəllimlərinin pedaqoji təcrübə dövründə peşə səriştəliliyinin formalaşdırılmasının didaktik şərtləri təşkil edir.

**Tədqiqatın məqsədi.** Xarici ölkələrdə ibtidai sinif müəllimlərinin peşə hazırlığının və pedaqoji təcrübəsinin standartlaşdırılmasını öyrənməkdən, bunun respublikamızda ibtidai sinif müəllimi hazırlığına təsirini müəyyənləşdirməkdən, pedaqoji təcrübə prosesində gələcək ibtidai sinif müəllimlərinin pedaqoji səriştəliliyinin formalaşdırılmasının didaktik şərtlərini, funksiyalarını, meyarlarını, səviyyələrini, strukturunu aşkar etməkdən, pedaqoji təcrübənin təşkili alqoritmini müəyyənləşdirməkdən və eksperimental yolla səmərəliyini təsdiq etməkdən ibarətdir.

**Tədqiqatın fərziyyəsi.** Gələcək ibtidai sinif müəllimlərinin pedaqoji təcrübə dövründə peşə səriştəliliyinin formalaşdırılmasının səmərəliliyi:

- pedaqoji, psixoloji və ixtisas fənlərinin inteqrasiyasına əsaslanan pedaqoji təcrübənin optimal modelini hazırlamaqdan;
- gələcək ibtidai sinif müəllimlərini pedaqoji təcrübəyə nəzəri və praktik cəhətdən hazırlamaqdan;
- pedaqoji təcrübə dövründə gələcək ibtidai sinif müəllimləri üçün müsbət motivasiya və mənəvi-psixoloji mühitin yaradılmasından;
- ali təhsil müəssisəsi ilə pedaqoji təcrübənin təşkil olunduğu məktəb arasında səmərəli əməkdaşlıqdan;
- pedaqoji təcrübənin təşkilinə təcrübəli professor-müəllimlərin cəlb edilməsindən asılıdır.

**Tədqiqatın vəzifələri** aşağıdakılardır:

- xarici ölkələrdə ibtidai sinif müəllimlərinin peşə hazırlığının və pedaqoji təcrübəsinin standartlaşdırılmasını müqayisəli şəkildə öyrənmək;

- Azərbaycanda ibtidai sinif müəllimi hazırlığına verilən ümumi tələbləri müəyyənləşdirmək;

- ibtidai sinif müəllimi hazırlığını həyata keçirən ali pedaqoji təhsil müəssisələrində pedaqoji təcrübənin təşkili və təkmilləşdirilməsini tarixi aspektdən araşdırmaq;

- gələcək ibtidai sinif müəllimlərinin pedaqoji təcrübəsinin funksiyalarını müəyyənləşdirmək;

- gələcək ibtidai sinif müəllimlərinin pedaqoji təcrübə dövründə peşə fəaliyyətinə hazırlanması yollarını müəyyənləşdirmək;

- pedaqoji təcrübə prosesində gələcək ibtidai sinif müəllimlərinin pedaqoji səriştəsinin formalaşdırılmasının didaktik şərtlərini, funksiyalarını, meyarlarını, səviyyələrini və strukturunu aşkar etmək;

- pedaqoji təcrübənin təşkili alqoritmini müəyyənləşdirmək və eksperimental yolla səmərəliyini təsdiq etmək.

**Tədqiqatın metodları:** elmi-pedaqoji ədəbiyyatın təhlili, müşahidə, müsahibə, anket sorğusu, qabaqcıl təcrübənin öyrənilməsi və pedaqoji eksperiment.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- mürəkkəb struktura malik olan pedaqoji təcrübə özünün məqsədi, funksiyası, prinsipləri, metodları və təşkili texnologiyası ilə gələcək ibtidai sinif müəllimlərinin peşə səriştəliliyinin formalaşdırılmasının səmərəli vasitəsidir;

- gələcək ibtidai sinif müəllimlərinin peşə səriştəliliyinin inkişafı təlim prosesində pedaqoji-psixoloji fənlərin tədrisində mənimsədiyi bilik, bacarıq və vərdişlərin səviyyəsindən və pedaqoji qabiliyyətlərindən asılıdır;

- pedaqoji təcrübə dövründə gələcək ibtidai sinif müəllimlərinin peşə səriştəliliyinin inkişafı ümumtəhsil məktəbində müsbət motivasiya və mənəvi-psixoloji mühitin yaradılmasından asılıdır;

- pedaqoji təcrübə dövründə gələcək ibtidai sinif müəllimlərinin peşə səriştəliliyinin inkişafı ali təhsil müəssisəsi ilə ümumtəhsil məktəbinin əməkdaşlığından, pedaqoq, psixoloq, metodist və sinif müəllimlərinin peşəkarlığından və təcrübəçi-tələbələrin pedaqoji peşəyə motivasiyasının səviyyəsindən asılıdır.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyada xarici ölkələrdə ibtidai sinif müəllimlərinin peşə hazırlığının və pedaqoji təcrübəsinin standartlaşdırılmasının Azərbaycanda ibtidai sinif müəllimi hazırlığına təsiri müəyyənləşdirilmiş, pedaqoji təcrübə prosesində gələcək ibtidai sinif müəllimlərinin pedaqoji səriştəsinin formalaşdırılmasının didaktik şərtləri, funksiyalar, meyarları və səviyyələri aşkar edilmiş, eksperimental yolla səmərəliliyi təsdiq edilmişdir.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** Dissertasiyada gələcək ibtidai sinif müəllimlərinin pedaqoji səriştəsinin inkişaf etdirilməsində pedaqoji təcrübənin rolu və yeri elmi-nəzəri cəhətdən əsaslandırılmış, pedaqoji səriştəsinin formalaşdırılmasının didaktik şərtləri,meyarları və səviyyələri aşkar edilmişdir ki, bunlar da ali pedaqoji təhsil nəzəriyyəsini zənginləşdirə bilər.

**Tədqiqatın praktiki əhəmiyyəti.** Gələcək ibtidai sinif müəllimlərinin pedaqoji səriştəsinin inkişaf etdirilməsində pedaqoji təcrübənin rolu ilə bağlı tövsiyələrdən ali pedaqoji məktəblərdə pedaqoji təcrübənin səmərəli təşkilində istifadə etmək mümkündür. Tədqiqatın nəticələri pedaqoji praktika ilə bağlı tədqiqatların aparılması, pedaqoji təcrübə ilə bağlı mühazirə və seminar məşğələlərinin təşkili, ixtisasartırma kursları, yeni nəsil "Ali məktəb pedaqogikası" dərsliyinin hazırlanması üçün də əhəmiyyətlidir.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Dissertasiyanın nəticələri Naxçıvan Dövlət Universitetinin və Naxçıvan Müəllimlər İnstitutunun Pedaqogika və psixologiya kafedralarının elmi seminarlarında, beynəlxalq və respublika səviyyəli konfranslarda müzakirə edilmiş, Azərbaycan Respublikasının Prezidenti yanında AAK-ın tövsiyə etdiyi elmi jurnallarda 8 məqalə (1-i xaricdə) nəşr edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Naxçıvan Dövlət Universitetinin Pedaqogika və psixologiya kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın ümumi həcmi.** Dissertasiyanın giriş hissəsi 16925 işarədən, I fəsil 104753 işarədən, II fəsil 89697 işarədən, nəticə 6009 işarədən və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

# TƏDQİQATIN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın obyekti, predmeti, məqsədi, vəzifələri, tədqiqat metodları, müdafiəyə çıxarılan əsas müddəalar, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, tətbiqi və aprobasiyası barədə qısa məlumat verilir.

***"Gələcək ibtidai sinif müəllimlərinin pedaqoji təcrübə dövründə peşə səriştəliliyinin formalaşdırılmasının nəzəri əsasları"*** adlı birinci fəslin *"Xarici ölkələrdə ibtidai sinif müəllimlərinin peşə hazırlığının standartlaşdırılması"* adlı ilk paraqrafında keçən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan təhsilində islahatlar aparmaq məqsədilə xarici ölkələrin təcrübəsinin öyrənilməsinə marağın artmasının, ibtidai sinif müəllimi hazırlığına yeni tələblərin verilməsinin səbəbləri izah edilir. İlk paraqrafda bu problem ətraflı şərh edilir,əksər inkişaf etmiş ölkələrdə ibtidai sinif müəllimlərinin hazırlığının orta və ya "natamam ali" təhsil müəssisələrində (pedaqoji kollec, normal məktəb, pedaqoji məktəb) həyata keçirildiyi əsaslandırılır. Danimarka, İtaliya, Norveç və başqa ölkələrdə ibtidai sinif müəllimləri natamam orta məktəb bazasında hazırlanır və təhsil müddəti 4 ildir. İngiltərə, Almaniya, ABŞ, Yaponiya və başqa ölkələrdə ibtidai sinif müəllimi tam orta təhsil bazasında hazırlanır ki, burada da təhsil müddəti 2 ildir. Bu gün universitetlərin nəzdində fəaliyyət göstərən pedaqoji kolleclərdə ibtidai sinif müəllimi hazırlığı müddətinin 3-4 ilə qədər artırılması tendensiyası müşahidə olunur. Bəzi ölkələrdə təhsil müddəti 4 il olan belə kolleclər universitetlərin Təhsil fakültələrinə və ya onların filiallarına çevrilir.

Fəslin ilk paraqrafında xarici ölkələrdə müəllim kadrları hazırlığının standartlaşdırılmasının əsas istiqamətləri müqayisəli şəkildə öyrənilir, tədqiq və təhlil olunur. Bu məqsədə ayrı-ayrı ölkələrin (İngiltərə, Fransa, Almaniya, Norveç, Danimarka, Polşa, Kanada, İsveç, Sinqapur, Türkiyə və s.) müəllim hazırlığı ilə bağlı Milli Kvalifikasiya standartları, Milli Kurikulum araşdırılır, Azərbaycan Milli Kvalifikasiya standartları və Azərbaycanda ibtidai sinif müəllimi hazırlığı üzrə Çərçivə Kurikulumu ilə müqayisə edilir. Xarici ölkələrin ibtidai sinif müəllimi hazırlığını həyata keçirən ayrı-ayrı təhsil ocaqlarında təhsilin strukturu, məzmunu, müddəti,

pedaqoji fənlərə ayrılan saatların xüsusi çəkisi fərqlidir. Ümumiyyətlə, isə ümumi tədris yükünün 25%-i pedaqoji fənlərə ayrılır. Gələcək ibtidai sinif müəllimləri 2 il müddətində psixologiya, təhsil fəlsəfəsi, təhsil sosiologiyası, ixtisas fənlərinin metodikası, pedaqogika tarixi, məktəb gigiyenası, məktəbşünaslıq, müqayisəli pedaqogika fənlərini mənimsəməli olur. Azərbaycanda da ibtidai sinif müəllimi hazırlığı üçün nəzərdə tutulan 1320 saatlıq ixtisas fənlərinin 390 saatı (29,5%), 660 saatlıq seçmə fənlərin 225 saatı (34%) pedaqogika və psixologiya fənninə ayrılmışdır. Ayrı-ayrı fənlərin (7 fənn) tədrisi metodikası da nəzərə alınsa pedaqoji-psixoloji fənlərə ayrılan saatların həcmi xeyli artmış olar. Azərbaycan ali məktəblərində digər müəllimlik ixtisaslarında bu rəqəm xeyli aşağıdır.

"*Azərbaycanda ibtidai sinif müəllimi hazırlığına verilən ümumi tələblər*" adlı ikinci paraqrafda Azərbaycanda ibtidai sinif müəllimi hazırlığı tarixi aspektdən təhlil edilir. İlkin olaraq azərbaycanlı müəllim kadrları hazırlığında mühüm rol oynayan Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin (1879-1918), İrəvan Müəllimlər Seminariyasının (1881-1918) və Qazax Müəllimlər Seminariyasının 1918-1920-ci illərdəki fəaliyyətinə toxunulur.

Birinci fəslin ikinci paraqrafında ali təhsilli ibtidai sinif müəllimi hazırlığını şərtləndirən amillər tədqiq olunmuşdur. Ali təhsilli ibtidai sinif müəllimi hazırlayan fakültənin ilk dəfə A.İ.Gertsen adına Leninqrad Dövlət Pedaqoji İnstitutunda, sonra isə Bakıda Azərbaycan Dövlət Pedaqoji İnstitutunda yaradıldığı əsaslandırılmışdır"[3]. Sonra respublikada ibtidai sinif müəllimi hazırlığında yaranan paralelliyin səbəbləri izah edilmişdir. Həmin dövrdə Respublikanın ali pedaqoji təhsil müəssisələrinin (ADPİ və onun Naxçıvan, Xankəndi filialları, GDPİ) müvafiq fakültələrində ali təhsilli ibtidai sinif müəllimi hazırlığına başlanılsa da pedaqoji texnikumlarda da bu iş davam etdirildi. 90-cı illərdə, təəssüf ki, ibtidai sinif müəllimi hazırlığındakı paralellik öz mövqeyini qoruyub saxladı. Ali təhsilli ibtidai sinif müəllimi hazırlığının geniş şəbəkəsi

---

[3] Rüstəmov, F.A. Azərbaycan Dövlət Pedaqoji Universitetinin İbtidai təhsil fakültəsi (1958-2021). /F.A.Rüstəmov. – Bakı: Elm və təhsil, – 2021, s.13

yaradılsa da heç bir ehtiyac olmadan pedaqoji məktəblərdə orta ixtisas təhsilli ibtidai sinif müəllimi hazırlığı davam etdirildi.

90-cı illərdə müəllim peşəsinə verilən tələblər daha da mürəkkəbləşdi. Gələcək müəllimlərdə *"təşkilatçılıq, didaktik, perseptiv, kommunikativ, suqqestiv, tədqiqatçılıq və elmi-idraki"*[4] qabiliyyətlərin inkişafı önə çəkildi. İldən-ilə müəllim hazırlığına verilən tələblər artırıldı, standartlar Avropa Milli Kvalifikasiya sənədlərindəki standartlara uyğunlaşdırıldı. 2008-ci ildə ibtidai sinif müəllimi hazırlığının yeni modeli olan "Azərbaycan Respublikasında ali təhsilin bakalavr pilləsində ibtidai sinif müəllimi hazırlığı üzrə Çərçivə Kurikulumu" təsdiq olundu.

*"İbtidai sinif müəllimi hazırlığını həyata keçirən ali pedaqoji təhsil müəssisələrində pedaqoji təcrübənin təşkili və təkmilləşdiril-məsi: tarixi aspekt"*adlı üçüncü paraqrafda keçmiş İttifaqda və Azərbaycanda müəllim kadrları hazırlığının mühüm mərhələsi olan pedaqoji təcrübənin yeri və rolu araşdırılmış, inkişaf tendensiyaları müəyyənləşdirilmişdir. Maraqlıdır ki, ildən-ilə pedaqoji təcrübənin təşkili təkmilləşdirilsə də, ona ayrılan vaxt artırılmaq əvəzinə azaldılmışdır. 90-cı illərdə və 2000-ci illərin əvvəllərində gələcək ibtidai sinif müəllimlərinin pedaqoji təcrübəsinin təşkili Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17 fevral 1994-cü il tarixli məktubu əsasında tənzimlənmişdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 19 sentyabr 2008-ci ildə təsdiq etdiyi *"Ali (orta ixtisas) təhsil müəssisələri tələbələrinin ixtisas üzrə təcrübəsinin keçirilməsi haqqında Əsasnamə"*[5]dissertasiyada geniş təhlil edilmişdir.

2020-ci ildə "İbtidai sinif müəllimliyi" ixtisası üzrə yeni Təhsil Proqramında pedaqoji təcrübənin internatura formasında keçirilməsi nəzərdə tutulmuş və pedaqoji təcrübənin həftələrinin sayı 14 həftədən 20 həftəyə, kreditlərin sayı isə 21-dən 30-a qaldırılmışdır. Gələcək ibtidai sinif müəllimləri 2023/24-cü tədris ilində həmin proqram əsasında pedaqoji təcrübəyə gedəcəklərini nəzərə alaraq ali

---

[4] Paşayev Ə. Rüstəmov F. Pedaqogika. Bakı: Elm və təhsil, 2012, s.45

[5] Ali (orta ixtisas) təhsil müəssisələri tələbələrinin ixtisas üzrə təcrübəsinin keçirilməsi haqqında Əsasnamə. https://e-qanun.az/framework/15508

pedaqoji məktəblərdə "İbtidai sinif müəllimliyi" ixtisası üzrə yeni bölgü hazırlanmışdır.

Deməli, gələcək müəllimlərin pedaqoji təcrübəsinin təşkili və keçirilməsi həmişə diqqət mərkəzində olmuşdur.

*Fəslin "Gələcək ibtidai sinif müəllimlərinin pedaqoji təcrübəsinin funksiyaları"* adlı dördüncü paraqrafında əsaslandırılır ki, mürəkkəb struktura malik olan pedaqoji təcrübə məqsədindən asılı olaraq müxtəlif formalarda təşkil edilir. "Pedaqoji təcrübə" anlayışının mahiyyəti ilə bağlı müxtəlif yanaşmalar mövcuddur. Bəzi tədqiqatçılar (O.A.Abdulina, N.F.Belokur, B.C.Qerşunski, L.B.Komarovskaya, A.O.Mehrabov, F.A.Rüstəmov, M.İ.İlyasov, B.Y.Bəşirov, T.Y.Dadaşova, M.A.İsmixanov, T.Ə.Məmmədov, S.Tağıyeva və b.) pedaqoji təcrübəni gələcək müəllimlərin psixoloji-pedaqoji hazırlığının tərkib hissəsi, digərləri (Y.N.Kulyutkin, Q.S.Suxobskaya, N.S.Rozov, İ.S.Yakimanskaya) gələcək müəllimlərin nəzəri təhsili ilə onların ümumtəhsil məktəbində gələcəkdə görəcəkləri müstəqil iş arasında əlaqə hesab edirlər.

Ali pedaqoji təhsil müəssisələrində tədris fəaliyyətinin bir növü olan pedaqoji təcrübə nəzəri və praktik fəaliyyət ehtiva etsə də onların arasında struktur və funksional fərqlər vardır. Pedaqoji təcrübənin *nəzəri aspekti* pedaqoji fəaliyyətə hazırlığın ümumi ideyalarını (məqsəd, məzmun, forma, metod, qiymətləndirmə), müxtəlif baxışları əhatə etməklə onların inkişafını təmin edir. *Praktiki aspekti* isə pedaqoji təcrübənin təşkilinin ənənəvi tərəfini əhatə edir.

Gələcək ibtidai sinif müəllimlərinin pedaqoji təcrübəsinin təşkili peşəkar müəllim hazırlığında həlledici və mühüm mərhələ hesab edildiyindən onun funksiyaları ilə bağlı fərqli fikirlər mövcuddur. M.M.Rubinşteyn, O.A.Abdullina, Q.M.Kodjaspirov, M.Ə.Muradxanov, N.M.Kazımov, H.M.Əhmədov, F.A.Rüstəmov, M.İ.İlyasov, M.A.İsmixanov və T.Y.Dadaşovanın pedaqoji təcrübənin funksiyaları ilə bağlı fikir və mülahizələri müqayisəli şəkildə araşdırılır və hər bir funksiyanın (öyrədici, tərbiyəedici, inkişafetdirici, nəzarətedici, adaptiv, diaqnostik) reallaşdırılması texnologiyası nümunələr əsasında nəzərdən keçirilir. Pedaqoji təcrübənin *yaradıcı xarakter* daşıması, gələcək müəllimlərdə tədqiqatçılıq qabiliyyətinin, bədii və layihələşdirmək qabiliyyətinin inkişaf etdirilməsi əsaslandırılır.

Dissertasiyanın ikinci fəsli ***“Gələcək ibtidai sinif müəllimlərinin pedaqoji təcrübə dövründə peşə səriştəliliyinin formalaşdırılmasının imkan və yolları”*** adlanır. Fəslin *“Gələcək ibtidai sinif müəllimlərinin pedaqoji təcrübə dövründə peşə fəaliyyətinə hazırlanması”* adlı ilk paraqrafında əsaslandırılır ki, gələcək ibtidai sinif müəllimlərinin pedaqoji təcrübəsinin səmərəli təşkili müəyyən pedaqoji səbəb və amillərdən (didaktik şərtlərdən) asılıdır. Didaktik şərtlərin səmərəli tətbiqi pedaqoji kadr hazırlığındakı aşağıdakı ziddiyyətlərin həllini tələb edir: a) ümumi təhsilin sifarişçiləri (valideynlər, ümumtəhsil məktəblərinin direktorları) ilə mütəxəssis hazırlığını həyata keçirən ali pedaqoji təhsil müəssisələri arasında əlaqənin kifayət qədər olmaması; b) nəzəriyyə ilə praktikanın səmərəli əlaqəsinin yaradılması üçün pedaqoji şəraitin olmaması. Müəyyən edilmiş bu ziddiyyətlər gələcək ibtidai sinif müəllimlərinin pedaqoji təcrübəsinin təşkilində zəruri pedaqoji şərtlərin nəzərə alınmasını tələb edir.

Peşəkarlığın səviyyəsinin yüksəldilməsinin ən mühüm amili peşə hazırlığının formalaşdırma səviyyəsinin meyarlar əsasında qiymətləndirilməsidir. Belə meyarlardan biri gələcək ibtidai sinif müəllimlərinin peşə bacarıqlarına yiyələnmə dərəcəsinin monitorinqinin aparılması, irəliləyişlərin nəzərə alınmasıdır. Monitorinq zamanı gələcək ibtidai sinif müəllimlərinin *nəzəri hazırlığının* səviyyəsinin müəyyənləşdirilməsi vacibdir. Belə hazırlıq nəzəri cəhətdən fəaliyyətə hazır olmağı, bununla bağlı bilik və bacarıqlara yiyələnməyi nəzərdə tutur ki, onlar da gələcək ibtidai sinif müəllimlərinin pedaqoji təfəkküründə və pedaqoji qabiliyyətində təzahür edir. “İbtidai sinif müəllimliyi” ixtisası üzrə yeni Təhsil Proqramında (2020) tədrisi nəzərdə tutulan fənlərin gələcək ibtidai sinif müəllimlərinin nəzəri-didaktik hazırlığında yeri və rolu öyrənilir. Tədqiqat zamanı gələcək ibtidai sinif müəllimlərində pedaqoji bacarıqların formalaşdırılma səviyyəsi müəyyənləşdirilmişdir. *Bu* məqsədlə: 1) valideynlər tərəfindən müəllimlərin pedaqoji bacarıqları dəyərləndirilmiş; 2) ibtidai sinif müəllimləri tərəfindən tələbələrin pedaqoji bacarıqları dəyərləndirilmiş; 3) gələcək ibtidai sinif müəllimlərində formalaşdırılmalı olan pedaqoji səriştələrin inkişafı diqqətdə saxlanılmışdır.

Fəslin *“Gələcək ibtidai sinif müəllimlərinin pedaqoji təcrübə dövründə peşə səriştəliliyinin formalaşdırılması*” adlı ikinci paraqrafında əsaslandırılır ki, gələcək ibtidai sinif müəllimlərində auditoriya şəraitində qazanılan nəzəri biliklərin tətbiqi, müəllimə xas olan şəxsi və peşə keyfiyyətlərinin formalaşdırılması, peşə vəzifələrinin həyata keçirilməsi üçün zəruri səriştələrin əldə edilməsi pedaqoji təcrübə vasitəsi ilə reallaşdırılır. Pedaqoji təcrübə dövründə peşə səriştəliliyinin formalaşdırılması aşağıda sadalanan pedaqoji-psixoloji problemlərin həlli səviyyəsindən asılıdır: 1) pedaqoji təcrübənin məqsədi; 2) pedaqoji təcrübənin funksiyaları; 3) pedaqoji təcrübənin prinsipləri (pedaqoji təcrübənin bütün iştirakçılar üçün təlim məkanı olması, standartlara əsaslanması, ali təhsil müəssisəsindəki təlim prosesi ilə inteqrasiya edilməsi, müxtəlif tədris mühitlərində həyata keçirilməsi, fasiləsiz ixtisasartırma mühitini təmsil etməsi,birgə məsuliyyət və əməkdaşlıq şəraitində təşkili); 4) pedaqoji təcrübə üzrə təlim nəticələri; 5) pedaqoji təcrübənin təşkili və idarə olunması; 6) sınaq dərslərinin aparılması; 7) psixologiya üzrə görüləcək işlər; 8) pedaqoji təcrübə dövründə şagird şəxsiyyətinin öyrənilməsi (psixoloji-pedaqoji xarakteristikanın tərtibi); 9) pedaqoji təcrübə dövründə sinif kollektivinin öyrənilməsi (psixoloji-pedaqoji xarakteristikanın tərtibi); 10) pedaqoji təcrübənin qiymətləndirilməsi. Paraqrafda bu pedaqoji problemlərin hər biri ayrı-ayrılıqda müqayisəli şəkildə tədqiq edilmiş, öyrənilmiş, bu sahədəki təcrübə ümumiləşdirilmiş, təklif və tövsiyələr verilmişdir.

*“Pedaqoji təcrübə dövründə gələcək ibtidai sinif müəllimlərində peşə səriştəliliyinin formalaşdırılmasının monitorinqi*” adlı fəslin sonuncu paraqrafında eksperimentin nəticələri ümumiləşdirilmişdir. Eksperiment işləri Naxçıvan Müəllimlər İnstitutunun İbtidai sinif müəllimliyi ixtisasının 138 tələbəsi ilə aparılmışdır. Tələbələrin pedaqoji təcrübəsi Naxçıvan şəhərinin qabaqcıl məktəblərində (4, 8, 11, 12, 14 saylı və H.Əliyev adına məktəb) təşkil olunmuşdur. Eksperimental qruplarda olduğu kimi kontrol qruplarda da 69 tələbə pedaqoji eksperimentə cəlb olunmuşdur.

Eksperimental işlərin səmərəli nəticəsinin olması gələcək ibtidai sinif müəllimlərinin pedaqoji səriştə haqqında fikirlərinin inkişaf dinamikasından, pedaqoji peşəyə motivasiya səviyyəsindən,

təlim fəaliyyətindən, pedaqoji təcrübə dövründə fərdi pedaqoji bacarıqlarının formalaşdırılmasından asılıdır. Tələbələrin peşə səriştəsinin inkişaf dinamikası tərəfimizdən həm təlim prosesində, həm də pedaqoji təcrübə dövründə öyrənilmişdir. Öncə, *gələcək ibtidai sinif müəllimlərinin pedaqoji səriştə haqqında təsəvvürlərinin inkişaf dinamikası* müəyyənləşdirilmişdir.

Nəzarət məqsədi ilə apardığımız sorğuda gələcək ibtidai sinif müəllimlərinin pedaqoji səriştəliliyinin formalaşdırılmasına yönəlmiş sistemli iş əsasında tələbələrin peşə hazırlığının inkişafına nail olmaq mümkündür. Pedaqoji fənlərin tədrisindən sonra təşkil edilən pedaqoji təcrübədə eksperimental qrup tələbələrinin peşə səriştəsi haqqında təsəvvürlərində əsaslı dəyişikliklər baş verdi. Bunu aşağıdakı cədvəldən də görmək olar.

**Cədvəl 2.3.1**

**Gələcək ibtidai sinif müəllimlərinin pedaqoji səriştə haqqında təsəvvürlərinin inkişaf dinamikası (eksperimental qruplarda)**

| Təsəvvürlərin səviyyəsi | Eksperimentdən əvvəl (%-lə) | Eksperimentdən sonra (%-lə) | Fərq (%-lə) |
|---|---|---|---|
| Yüksək | 21, 4 % | 42,8% | 21,4% |
| Orta | 29,1% | 36,7% | 7,6 % |
| Aşağı | 49,5% | 20,5% | 29 % |

Gələcək ibtidai sinif müəllimlərinin pedaqoji səriştə haqqında təsəvvürlərinin inkişaf dinamikasının təhlili onların pedaqoji səriştə ilə bağlı təsəvvürlərinin xeyli dərəcədə artdığını göstərir.

Eksperimental işin nəticələri gələcək ibtidai sinif müəllimlərinin pedaqoji səriştə ilə bağlı təsəvvürlərində keyfiyyət dəyişikliyinin olmasını sübut edir.Sorğu zamanı tələbələr pedaqoji səriştənin vacibliyini qeyd etməklə yanaşı, pedaqoji fəaliyyətinin təşkilində onların mühüm rol oynamasını əsaslandırdılar.

Eksperimentin daha etibarlı və səmərəli olmasını sübut etmək üçün nəzarət qrupu kimi seçilmiş tələbələrlə sorğu keçirdik.

**Cədvəl 2.3.2**

**Gələcək ibtidai sinif müəllimlərinin pedaqoji səriştə haqqında təsəvvürlərinin inkişaf dinamikası (kontrol qruplarda)**

| Təsəvvürlərin səviyyəsi | Eksperimentdən əvvəl (%-lə) | Eksperimentdən sonra (%-lə) | Fərq (%-lə) |
|---|---|---|---|
| Yüksək | 17,1 | 24,8% | 7,7% |
| Orta | 30,8 | 35 % | 4,2 % |
| Aşağı | 52,1% | 40,2% | 11,9% |

Gələcək ibtidai sinif müəllimlərinin (kontrol qruplarında) pedaqoji səriştə haqqında təsəvvürlərinin inkişaf dinamikasının təhlili onların da pedaqoji səriştə ilə bağlı təsəvvürlərinin artdığını göstərir. Lakin bu artım eksperimental qruplarla müqayisədə xeyli aşağı səviyyədə olmuşdur.

Deməli, eksperimentdən əvvəl və eksperimentdən sonrakı mərhələ arasında müəyyən fərq yaranmışdır. Belə ki, gələcək ibtidai sinif müəllimlərinin 7,7%-də pedaqoji səriştə ilə bağlı təsəvvürlər yüksəlmiş, 7,6%-də təsəvvürlər orta olmuş, 11%-də təsəvvürlər yaxşılığa doğru dəyişmişdir.

Eksperiment zamanı alınan nəticələri aşağıdakı kimi ümumiləşdirmək olar:

**Cədvəl 2.3.3**

**Gələcək ibtidai sinif müəllimlərinin eksperiment və kontrol qruplarda pedaqoji səriştə haqqında təsəvvürlərinin inkişaf dinamikasının müqayisəli təhlili**

| Təsəvvürlərin səviyyəsi | Başlanğıc mərhələ | | Yekun mərhələ | | Fərq | |
|---|---|---|---|---|---|---|
| | EQ | KQ | EQ | KQ | EQ | KQ |
| Yüksək | 21,4 % | 17,1% | 42,8% | 24,8% | 21,4% | 7,7% |
| Orta | 29,1% | 30,8% | 36,7% | 35 % | 7,6 % | 4,2 % |
| Aşağı | 49,5% | 52,1% | 20,5% | 40,2% | 29 % | 11,9% |
| Cəmi: | 100 | 100 | 100 | 100 | | |

2.*Gələcək ibtidai sinif müəllimlərinin tədris fəaliyyətinə və müəllim peşəsinin seçilməsinə motivasiyasının səviyyəsi.*

Təlim prosesində və pedaqoji təcrübə müddətində müəyyən etdik ki, gələcək ibtidai sinif müəllimlərində pedaqoji səriştəliliyin formalaşdırılması və inkişafı onların pedaqoji peşəyə motivasiyası ilə sıx bağlıdır. Pedaqoji səriştəliliyin inkişafının müəyyən edilməsində peşə motivasiyası mühüm yer tutur. Peşə motivləri pedaqoji prosesin əsas hərəkətverici qüvvəsidir. Pedaqoji prosesdə motivasiyanın olması tələbənin pedaqoji peşəyə münasibətinin dəyişməsi ilə nəticələnir. Pedaqoji prosesdə motivlər kompleks şəkildə özünü büruzə verir. Motivlərin dəyərləndirilməsində müxtəlif meyarlardan istifadə edilməklə onun səmərəliliyinin səviyyəsi yoxlanılır. Pedaqoji prosesin və pedaqoji praktikanın təşkilində bu və ya digər şəkildə özünü büruzə verən motivlərin heç də hamısı gələcək ibtidai sinif müəllimlərinin peşə səriştəliliyinin inkişafına eyni təsir gücünə malik deyil. Bu səbəbdən də təlim motivlərini öyrənmək həmişə diqqət mərkəzində olub. Motivləri və onların meyarlarını öyrənmədən pedaqoji prosesin məhsuldarlığını yüksəltmək, peşə səriştəliliyinin səviyyəsini müəyyənləşdirmək çətindir. Dissertasiyada həm təlim prosesində, həm də pedaqoji təcrübə dövründə gələcək ibtidai sinif müəllimlərinin motivlərinin öyrənilməsi üçün tətbiq edilən alqoritmlər haqqında geniş məlumat verilir.

**Cədvəl 2.3.4**

**Gələcək ibtidai sinif müəllimlərində peşə motivasiyasının formalaşma səviyyəsi**

| № | Gələcək ibtidai sinif müəllimlərinə təqdim edilən suallar | Cavablar | |
|---|---|---|---|
| | | EQ | KQ |
| 1. | *İbtidai sinif müəlliminin peşə fəaliyyətini necə xarakterizə edə bilərsiniz? Yalnız bir cavab seçin.* | | |
| | 1) işi çətin və maraqsızdır; | 25,6% | 48,8% |
| | 2) iş çətin, lakin maraqlıdır; | 45,8% | 24,5% |
| | 3) işi asan, amma darıxdırıcıdır; | 15,7% | 21,6% |
| | 4) cavab verməkdə çətinlik çəkirəm | 12,9% | 5,1% |

| | | | |
|---|---|---|---|
| 2. | *İbtidai sinif müəllimi üçün hansı biliklər əsasdır? Ardıcıllıqla düzün.*<br>1) didaktik biliklər;<br>2) psixoloji biliklər;<br>3) multikultural biliklər;<br>4) yaş və fiziologiya haqqında biliklər;<br>5) digər cavablar... | <br><br>47,6%<br>24,9%<br>13,9%<br>10,0%<br>3,6% | <br><br>21,3%<br>21,8%<br>17,5%<br>9,8%<br>29,6% |
| 3. | *Azərbaycan dili öyrətməyin tərbiyəvi funksiyası varmı? Əgər varsa, bu funksiyalar hansılardır?*<br>1) bəli.<br>2) xeyr. | <br><br>95,4%<br>4,6% | <br><br>52,1%<br>47,9% |
| 4. | *Pedaqoji fənlərin tədrisində öyrəndiyiniz hansı metodlardan dərsdə istifadə etmisiniz? (açıq sual).*<br>1) kifayət qədər tam cavab verdi;<br>2) təxmini cavab verdi;<br>3) suala cavab vermədi. | <br><br>64,2%<br>23,8%<br>12,0% | <br><br>13,5%<br>38,4%<br>48,1% |
| 5. | *Niyə bəzi tələbələr ibtidai sinif müəllimi olmaq üçün daha çox çalışır, bəziləri isə bunun üçün xüsusi fəaliyyət göstərmir?*<br>1) ciddi oxumaq istəmirlər, tənbəldirlər;<br>2) ibtidai sinif müəllimi olmaq istəmirlər;<br>3) dözümlülük, əzmkarlıq çatışmır;<br>4) müəllimolmaq üçünmotivasiyayoxdur. | <br><br><br>22,6%<br>14,7%<br>31,9%<br>30,8% | <br><br><br>27,1%<br>31,3%<br>22,8%<br>18.8% |
| 6. | *Keyfiyyətli ibtidai sinif müəllimi hazırlığı üçün hansı şərtləri vacib hesab edirsiniz? (açıqsual).*<br>1) kifayət qədər tam cavab verdi:<br>2) natamam cavab verdi:<br>3) suala cavab vermədi. | <br><br>57,4%<br>32,3%<br>10,3% | <br><br>20,3%<br>39,6%<br>40,1% |

Gələcək ibtidai sinif müəllimlərində peşə motivasiyasının formalaşma səviyyəsini müəyyən etdikdən sonra onlarda pedaqoji *səriştənin formalaşdırılma səviyyəsini* müəyyən etməyə çalışdıq. Bunu biz pedaqoji təcrübənin son mərhələsində yoxlamalı olduq. Nəticələr aşağıdakı cədvəldəki kimi oldu.

**Cədvəl 2.3.5**

**Pedaqoji təcrübənin son mərhələsində gələcək ibtidai sinif müəllimlərində peşə səriştəsinin səviyyəsi**

| № | Gələcək ibtidai sinif müəllimlərinə təqdim edilən suallar | Cavablar | |
|---|---|---|---|
| | | EQ | KQ |
| 1. | *İbtidai sinif müəllimi hansı keyfiyyətlərə malik olmalıdır?*<br>1) ciddi və tələbkar olmalıdır:<br>2) şən və ünsiyyətcil olmalıdır;<br>3)yüksək öyrətmə qabiliyyətinə malik olmalıdır;<br>4) şagirdin psixologiyasını bilməlidir. | <br><br>12,6%<br>31,5%<br>46,7%<br>9,2% | <br><br>44.2%<br>19,4%<br>31,1%<br>5,3% |
| 2. | *Yaxşı ibtidai sinif müəllimi olmaq üçün özünüzdə hansı keyfiyyətləri inkişaf etdirməlisiniz?*<br>1) praktiki biliklərimi təkmilləşdirməliyəm;<br>2) uşaqlarla ünsiyyət qurmağı öyrənməliyəm;<br>3) zəruri keyfiyyətlərə malikəm;<br>4) fənlərin tədrisi texnologiyasına yiyələnməliyəm;<br>5) sistemli şəkildə özünütəhsillə məşğul olmalıyam | <br><br>24,7%<br>28,6%<br>3,5%<br>14,4%<br>28,8% | <br><br>29,7%<br>8,7%<br>23,2%<br>22,1%<br>16,3% |
| 3. | *Pedaqoji təcrübə dövründə ibtidai sinif müəllimi kimi fəaliyyət göstərməkdən zövq aldınızmı?*<br>1) bəli, əlbəttə<br>2) o qədər də yox.<br>3) cavab verməkdə çətinlik çəkirəm. | <br>53,7 %<br>29,9%<br>16,4% | <br>28,5%<br>38,6%<br>32,9% |
| 4. | *Məzun olduqdan sonra ibtidai sinif müəllimi işləyəcəksənmi?*<br>1) bəli.<br>2) xeyr.<br>3) hələ bilmirəm. | <br><br>78,7 %<br>15,4 %<br>5,9 % | <br><br>40,6%<br>37,7%<br>21,7% |

Gələcək ibtidai sinif müəllimlərinin həmin suallara cavabını təhlil etməklə onların pedaqoji fəaliyyətlə bağlı bilik və bacarıqlarının, pedaqoji səriştəsinin, müstəqil olaraq pedaqoji fəaliyyətə hazırlığının səviyyəsini müəyyən etməyə nail olduq.

Beləliklə, gələcək ibtidai sinif müəllimlərinin 14 həftəlik pedaqoji təcrübəsinin məqsədyönlü şəkildə təşkili şəraitində

tələbələrin peşə səriştəsinin öyrənilməsi göstərdi ki,bu müddət ərzində tələbələr nəzəri biliklərini praktikaya tətbiq etmiş, pedaqoji fəaliyyətlə bağlı zəruri bacarıqları mənimsəmiş, sınaq dərslərinin tədrisində müasir texnologiyalardan səmərəli istifadə etmiş, pedaqoji motivasiyası güclənmişdir.

Deməli, gələcək ibtidai sinif müəllimlərinin peşə səriştəliliyinin inkişafında pedaqoji təcrübə mühüm rol oynayır.

Dissertasiyanın sonunda aşağıdakı ***nəticələrə*** gəlinmişdir.

1.Pedaqoji təcrübə dövründə gələcək ibtidai sinif müəllimlərində peşə səriştəliliyinin formalaşdırılması ilə bağlı elmi-pedaqoji ədəbiyyatın araşdırılması göstərir ki, bu, ali pedaqoji təhsilin ən mühüm problemlərindən biridir.

2.Gələcək ibtidai sinif müəllimləri hazırlığının məqsəd və vəzifələrinə uyğun apardığımız tədqiqatda pedaqoji təcrübə peşəkar ibtidai sinif müəllimi hazırlığının vacib komponenti və onların peşəkar səriştəliliyinin formalaşdırılmasının vasitəsi kimi çıxış edir.

3.Tədqiqatda pedaqoji təcrübə tədris-peşə fəaliyyətinin xüsusi forması kimi təhlilə cəlb olunur, pedaqoji təcrübənin subyekti olan gələcək ibtidai sinif müəllimlərinin şəxsi və fərdi keyfiyyətlərinin, mənəvi ehtiyaclarının, motivasiyasının, peşə və intellektual fəaliyyətinin inkişafında onun mühüm rol oynadığı əsaslandırılır.

4.Tədqiqat gələcək ibtidai sinif müəllimlərinin təcrübəsinin səmərəliliyinə təsir göstərən aşağıdakı amilləri müəyyən etməyə imkan verdi:1) pedaqoji fəaliyyətə nəzəri və praktiki hazırlığın optimal əlaqələndirilməsi;2) pedaqoji təcrübənin məqsədyönlü təşkili və aparılması;3) pedaqoji təcrübə dövründə gələcək ibtidai sinif müəllimləri üçün müsbət motivasiya və mənəvi-psixoloji mühitin yaradılması; 4) ali təhsil müəssisəsi ilə pedaqoji təcrübənin təşkil olunduğu məktəb arasında səmərəli əməkdaşlıq; 5) pedaqoji təcrübənin təşkilinə təcrübəli professor-müəllimlərin cəlb edilməsi.

5.Tədqiqat zamanı pedaqoji təcrübə dövründə gələcək ibtidai sinif müəllimlərinin peşə səriştəsinin formalaşdırılmasının üç səviyyəsi (yüksək, orta, aşağı) müəyyən edildi.

6.Pedaqoji təcrübə gələcək ibtidai sinif müəllimlərinin biliklərinin dərinləşməsi və zənginləşməsində (öyrədici funksiya), peşə keyfiyyətləri və şəxsi keyfiyyətlərin formalaşdırılmasında

(tərbiyəedici funksiya), bir şəxsiyyət kimi inkişafının təmin edilməsində (inkişafetdirici funksiya), irəliləyişlərin diaqnostikasında (diaqnostik funksiya), peşə-pedaqoji fəaliyyətin keyfiyyətinin idarə olunmasında, məqsədəmüvafiq korreksiyaların aparılmasında (nəzarətedici funksiya) mühüm əhəmiyyət kəsb edir.

7.Pedaqoji təcrübə dövründə gələcək ibtidai sinif müəllimlərində pedaqoji peşə səriştəliliyinin formalaşdırılmasının səviyyəsi onların təlim prosesində pedaqoji fənlərin tədrisinin keyfiyyətindən asılıdır. Təlim prosesində gələcək ibtidai sinif müəllimlərində pedaqoji peşəyə maraq və meylin yaradılması, ilkin peşə bacarıqlarının formalaşdırılması, müəllimin peşə qabiliyyətləri, funksiyaları, peşə potensialı, əxlaqi-mənəvi keyfiyyətləri və pedaqoji ustalıq haqqında nəzəri məlumatları mənimsəməsi pedaqoji təcrübə dövründə onlarda peşə səriştəliliyinin inkişafında əsaslı rol oynayır.

8.Demokratikləşdirmə, humanistləşdirmə, nəzəriyyənin tədris praktikası ilə inteqrasiyası, təlimin praktik istiqaməti, təcrübəçi-tələbələrin fərdi və şəxsi xüsusiyyətlərinə istinadən tədrisin təşkili, fərdi və kollektiv iş formalarının əlaqələndirilməsi və sistematiklik prinsiplərinin nəzərə alınması gələcək ibtidai sinif müəllimlərinin pedaqoji təcrübəsinin təşkilində səmərəliliyi və məhsuldarlığı təmin edir.

9.Gələcək ibtidai sinif müəllimlərinin 14 həftəlik pedaqoji təcrübəsinin məqsədyönlü şəkildə təşkili zamanı tələbələrin nəzəri biliklərini praktikaya tətbiq etməsi, pedaqoji fəaliyyətlə bağlı zəruri bacarıqları mənimsəməsi, sınaq dərslərinin tədrisində müasir texnologiyalardan səmərəli istifadə etməsi onlarda pedaqoji motivasiyanın güclənməsini və peşə səriştəliliyinin inkişafını təmin edir ki, bu da fərziyyədə ifadə edilən müddəaların doğruluğunu təsdiqləyir.

10.Tədqiqat göstərdi ki, pedaqoji təcrübə gələcək ibtidai sinif müəllimlərinin peşə hazırlığının tərkib hissəsi olmaqla peşə-ixtisas bacarıqlarının formalaşmasının vacib komponenti kimi bir sıra vəzifələrin həllini təmin edir:

- peşə-ixtisas bacarıqlarını inkişaf etdirmək;
- gələcək ibtidai sinif müəllimlərini ümumtəhsil məktəbində peşə fəaliyyətinin şərtləri ilə tanış etmək;

- tələbələrin təhsil fəaliyyətindən peşə fəaliyyətinə keçidi təmin etmək;

- gələcək ibtidai sinif müəllimlərində pedaqoji təcrübə dövründə peşə motivasiyanın inkişafına kömək etmək;

- gələcək ibtidai sinif müəllimlərində pedaqoji bacarıqların və peşə səriştəliliyinin inkişafına və formalaşmasına kömək etmək.

11.Pedaqoji təcrübənin keçirilməsi zamanı ümumtəhsil məktəblərində sağlam təhsil mühitinin yaradılması və didaktik şərtlərə əməl edilməsi gələcək ibtidai sinif müəllimlərinin peşəkarlıq səviyyəsinin yüksəlməsinin və peşəkarlıq səriştəliliyinin formalaşmasının mühüm şərtidir.

12. Gələcək ibtidai sinif müəllimlərinin peşə səriştəliliyinin inkişafı ali təhsil müəssisəsi ilə ümumtəhsil məktəbinin əməkdaşlığından, pedaqoq, psixoloq, metodist və sinif müəllimlərinin peşəkarlığından və təcrübəçi-tələbələrin pedaqoji peşəyə motivasiyasının səviyyəsindən asılıdır.

Dissertasiyada aşağıdakı ***təkliflər*** irəli sürülmüşdür.

1) gələcək ibtidai sinif müəllimlərinin I tədris ilindən başlayaraq ali pedaqoji təhsil müəssisələrinin baza məktəblərində pedaqoji prosesi müşahidə etməsi (passiv müşahidə);

2)14 həftəlik pedaqoji təcrübənin ən azı iki semestr ərzində təşkil edilməsi;

3) ibtidai sinif müəllimliyi ixtisasında sınaq dərslərinin sayının çox olmasını nəzərə alaraq pedaqoji təcrübənin ya vaxtının artırılması, ya da sınaq dərslərinin sayının azaldılması;

4) pedaqoji təcrübəyə pedaqoq, psixoloq və metodist kimi təcrübəli professor-müəllimlərin cəlb edilməsi;

5) Naxçıvan Müəllimlər İnstitununun "İbtidai sinif müəllimliyi" ixtisasının tədris planına seçmə fənn kimi "Müəllimlik ixtisasına giriş" kursunun daxil edilməsi.

6) passiv təcrübənin keçirilmədiyini, gələcək ibtidai sinif müəllimlərinin birdən-birə 14 həftəlik pedaqoji təcrübəyə başlamasını nəzərə alaraq, təcrübədən əvvəl onlara seminar məşğələlərinin keçirilməsi, qrup və ya kollektiv halında məsləhətlərin verilməsi;

7) ali təhsil müəssisəsi ilə ümumtəhsil məktəblərinin əməkdaşlığının yeni mexanizminin (məsələn, məktəblərdə metodika kafedralarının filiallarının təşkili) yaradılması.

8) gələcək müəllimlərin pedaqoji təcrübəsində fasiləsizliyi təmin etmək məqsədilə yay tədris təcrübəsinin bərpa edilməsi.

**Dissertasiyanın nəticələri aşağıdakı *məqalələr və tezislərdə* öz əksini tapmışdır.**


1. Müasir təhsil sistemində monitorinq və qiymətləndirmə: standartlar və reallıqlar //"Ümumi təhsildə kurikulum islahatları: nəticələr və perspektivlər – 2021" mövzusunda Respublika elmi-praktik konfransının materialları. Naxçıvan,21 may 2021, s.207
2. İbtidai sinif müəllimliyi ixtisasında təhsil alan tələbələrdə peşə səriştəliyinin formalaşmasında pedaqoji təcrübənin imkanları //"Təhsil, tədqiqat və innovasiyanın vəhdəti" mövzusunda doktorant və magistrantların III regional elmi konfransının materialları. Naxçıvan, 30 aprel 2021, s.19-21
3. Gələcək ibtidai sinif müəllimlərinin pedaqoji təcrübəsinin təşkilinin məqsədi, prinsipləri, qiymətləndirilməsi və təlim nəticələri // Azərbaycan Milli Elmlər Akademiyası Gəncə bölməsi. Xəbərlər məcmuəsi. Pedaqoji elmlər seriyası.Gəncə, 2021, №1(3), s.136-142
4. Pedaqoji ali məktəblərdə gələcək ibtidai sinif müəllimlərinin pedaqoji təcrübəsinin təşkili (tarixi aspekt) //Azərbaycan Respublikasının Təhsil İnstitutu.Elmi əsərlər.cild 89, №2, 2022, s.33-38
5. Müəllim hazırlığında pedaqoji təcrübənin təkmilləşdirilməsinin yeni modelləri // Peşə təhsili və insan kapitalı, Cild 5, №2, 2022, s 46-51
6. Avropa ölkələrində ibtidai sinif müəllimlərinin peşə hazırlığının və pedaqoji təcrübəsinin təşkilinin standartlaşdırılması //Naxçıvan Müəllimlər İnstitututu. Elmi əsərlər, №1 (67) "Məktəb", 2022. s. 61-66

7. Azərbaycanda ibtidai sinif müəllimi hazırlığına verilən ümumi tələblər //Naxçıvan Dövlət Universiteti. Elmi əsərlər, №1 (114) Naxçıvan 2022. s.97-102
8. Naxçıvan Müəllimlər İnstitututunun sonuncu tədris ili tələbələrində pedaqoji təcrübə dövründə peşə kompetensiyalarının formalaşdırılmasının inkişaf səviyyəsinin tədqiqi və təhlili //Azərbaycan Respublikasının Təhsil İnstitutu. Elmi əsərlər. cild 89, №3, 2022, s.40-45.
9. Yaponiya, ABŞ və Azərbaycanda ibtidai sinif müəllimlərinin peşə və pedaqoji praktikasının standartlaşdırılmasının müqayisəli təhlili. //Sumqayıt Dövlət Universiteti "Konfrans materialları" №4, 2022, s. 141-143.
10. Pedaqoji təcrübə dövründə gələcək ibtidai sinif müəllimlərində peşə səriştəliliyinin formalaşdırılmasının monitorinqi. // Kurikulum elmi-metodik jurnalı. Cild 15, №2 (58), 2022 (aprel-iyun), s.67-73
11. Gələcək ibtidai sinif müəllimlərinin pedaqoji təcrübəsinin təşkilinin xüsusiyyətləri.// Naxçıvan Müəllimlər İnstitutu "Ümumi təhsilin dövlət standartları və məktəb təcrübəsi" mövzusunda Respublika elmi-praktik konfransının materialları.Naxçıvan,20 may 2022, s. 117-118
12. Особенности организации педагогической практики будущих учителей началъных классов // Наука, новые технологии и инновации кыргызстана, №3, 2022. s. 268-312.
13. Təhsil alan tələbələrin pedaqoji təcrübəsinin səmərəliliyinin yüksəldilməsi yolları // Naxçıvan Müəllimlər İnstitutu "Müasir təhsilin inkişaf strategiyaları: uğurlar və çağırışlar" mövzusunda beynəlxalq elmi konfransın materialları. Naxçıvan, 26-27 noyabr 2021, s. 735-738.
14. Gələcək ibtidai sinif müəllimlərinin təcrübə dövründə peşə fəaliyyətinə hazırlanmasının didaktik şərtləri //"Civilizational bridges between people and cultures" The XXV İnternational Scientific Symposium. Azerbaijan-Ukraine.The 23rd of aprel 2022 Kiev/ Ukraine. s. 85-88

15. Функции педагогической практики будущих учителей началъных классов.// Bakı Slavyan Universiteti. "İnklüziv təhsildən inklüziv cəmiyyətə" Respublika elmi-praktik konfransın materialları. (15 aprel 2022) s. 390-393

Dissertasiyanın müdafiəsi “29” dekabr 2023-cü il tarixdə saat 13:00 da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Naxçıvan Müəllimlər İnstitutu nəzdində fəaliyyət göstərən FD 2.40 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: Naxçıvan MR, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 1, Az7003, Naxçıvan Müəllimlər İnstitutu

Dissertasiya ilə Naxçıvan Müəllimlər İnstitutunun elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Naxçıvan Müəllimlər İnstitutu rəsmi internet saytında (www.nmi.edu.az) yerləşdirilmişdir.

Avtoreferat “ 27” noyabr 2023-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 22.11.2023

Kağızın formatı: 60x84 1/16

Həcm: 36415 işarə

Tiraj: 100